1_Layout 1 28.09.2018 16:46 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**

# ƏSGƏR

№ 19 (535)

01 oktyabr 2018-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV "ADEX-2018" ÜÇÜNCÜ AZƏRBAYCAN BEYNƏLXALQ MÜDAFİƏ SƏRGİSİ İLƏ TANIŞ OLUB

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 25-də Bakı Ekspo Mərkəzində açılan "ADEX-2018" üçüncü Azərbaycan Beynəlxalq müdafiə sərgisi ilə tanış olub.**

**AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı əvvəlcə mərkəzin qarşısında nümayiş etdirilən hərbi məhsullara və texnikalara baxdı.**



Müdafiə Naziri Zakir Həsənov və Müdafiə Sənayesi Nazirinin müavini Yəhya Musayev Prezident İlham Əliyevə məlumat verdilər ki, bu il sərgidə dünyanın 29 ölkəsini təmsil edən 224 şirkət iştirak edir. Regionda ən böyük silah və hərbi texnika ekspozisiyalarından ibarət olan genişmiqyaslı bu tədbir müasir silah və avadanlıqların, Azərbaycanın müdafiə sənayesi kompleksinin gücü və qüdrətinin nümayişi üçün geniş imkanlar açır. Azərbaycanın hərbi sənaye kompleksinin geniş təmsil olunduğu sərgidə "Matador", "Marauder" və digər zirehli hərbi texnikalar, o cümlədən, tank əleyhinə raket kompleksi böyük maraqla qarşılanır.

Hava hücumundan müdafiə silahlarının və hərbi texnikaların servis xidməti mərkəzinin stendi ilə tanış olan Prezident İlham Əliyevə məlumat verildi ki, Azərbaycan-Belarus birgə müəssisəsi əsasən silahlanma sistemlərinin təkmilləşdirilməsi və modelləşdirilməsi, hərbi elmi-tədqiqat işi, yeni silahlanma sistemlərinin inkişafı, qoşun və silahlanmada nəzarət sistemləri üçün texniki və proqram vasitələrinin təminatının hazırlanması ilə məşğuldur.

Belarus Respublikası artıq Azərbaycan Beynəlxalq müdafiə sərgisinin fəal iştirakçıları arasındadır. Sərgiyə 10 şirkətlə qatılan Belarus müxtəlif hərbi məhsullarla yanaşı, ağır hərbi texnika da nümayiş etdirir. "Belspetsvneshtechnika" Dövlət Xarici Ticarət Unitar Müəssisəsi yüksək texnoloji məhsulların ixracı sahəsində ixtisaslaşan, hərbi tətbiqlər üzrə texnologiyalar sahəsində intensiv biliyə malik olan aparıcı müəssisədir.

Türkiyənin "Aselsan" şirkəti də artıq üçüncü dəfədir sərgidə iştirak edir və onun təqdim etdiyi məhsullar da maraqla qarşılanır.

Təkərli zirehli texnikanın istehsalı sahəsində ixtisaslaşan Rusiyanın Hərbi Sənaye Şirkəti isə müdafiə, hüquq-mühafizə və terrora qarşı mübarizə sahələrində silsilə tapşırıqların həllinə görə zirehli texnikaları tədarük etməklə 50-dən çox ölkədə dövlət orqanları ilə və özəl şirkətlərlə əməkdaşlıq edir.

İsrailin "Elbit Systems" şirkəti də sərgiyə böyük maraq göstərir və o, dünyada müdafiə, milli təhlükəsizlik və kommersiya təyinatlı silsilə proqramların hazırlanması ilə məşğul olan beynəlxalq şirkətdir. "Elbit" və onun törəmə müəssisələri aerokosmik, quru və donanma sistemləri, komanda, nəzarət, kommunikasiya, kompüter, məlumattoplama, müşahidə və kəşfiyyat, pilotsuz uçuş sistemlərinin istehsalı üzrə fəaliyyət göstərir.

Sonra Prezident İlham Əliyev Baku Ekspo Mərkəzinin daxili pavilyonlarındakı stendlərlə tanış oldu.

Qeyd edildi ki, bir sıra ölkələr əvvəlki illərlə müqayisədə milli ekspozisiyaların sahəsini böyüdüblər. Təmsil olunan şirkətlərin sayının çoxluğuna görə ilk dördlüyə Türkiyə, Rusiya, İsrail və Belarus daxildir. İştirakçıların coğrafiyası Estoniya, Hindistan və Qazaxıstan kimi ölkələrin hesabına genişlənib. Ümumilikdə, ziyarətçi şirkət və qurumlarla birlikdə sərginin coğrafiyası 44 ölkəni əhatə edir. Pavilyonlarda müasir silah və texnikalar nümayiş olunur.

Dövlətimizin başçısı Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin pavilyonunda nümayiş etdirilən hərbi məmulatlara baxdı. Qeyd edildi ki, nazirliyin tabeliyinə verilən müəssisələrdə qısa müddətdə yenidənqurma işləri aparılıb, son illərdə həmin müəssisələrin maşın və avadanlıq parkı yenilənib, bu məqsədlə dünyanın inkişaf etmiş ölkələrindən ən son texnoloji avadanlıqlar alınıb quraşdırılıb. Müdafiə Sənayesi Nazirliyi aviasiya, naviqasiya, cihazqayırma və digər istiqamətlər üzrə dünyanın inkişaf etmiş ölkələri ilə sıx əməkdaşlıq qurub. 2009-cu ildən başlayaraq nazirliyin müəssisələrində istehsal olunan məhsullar xaricdə keçirilən Beynəlxalq müdafiə sərgilərində də nümayiş olunur.







Müasir silah və texnikanın, habelə milli müdafiə sahəsində Azərbaycanın gücünün və qüdrətinin böyük nümayişinə çevrilən sərgidə son illərdə ölkəmizdə istehsal olunan yüngül və ağır hərbi texnikalar nümayişə çıxarılıb. Atıcı silahlarla təchiz olunan universal "Gürzə" avtomobili, müxtəlif çaplı atıcı silahlar, raket başlıqları, pilotsuz uçuş aparatları və digər hərbi texnikalar sərginin maraq doğuran eksponatları sırasındadır.

"Azərbaycan silahının təkamülü" adı altında çıxış edən Azərbaycan Hərb Tarixi Muzeyi sərgidə qədimdən müasir dövrədək ölkəmizin ərazisində mövcud olmuş dövlətlərin döyüşlərdə istifadə etdikləri texnikalar və silahlar, həmçinin, geyim nümunələri də daxil olmaqla 50-dək eksponat nümayiş etdirir.

AMEA-nın Yüksək Texnologiyalar Parkı da sərgidə ilk dəfə iştirak edir. Stenddə hərb sahəsində müasir elmi və texnoloji nailiyyətlərə əsaslanan innovasiyayönümlü yeni texnologiyaların hazırlanması, işlənilməsi və təkmilləşdirilməsi məqsədilə görülən işlər nümayiş etdirilir.

Müdafiə Sənayesi Nazirliyi, eləcə də nazirliyin nəzdindəki struktur və zavodlar, o cümlədən Müdafiə Nazirliyi və ANAMA agentliyi sərgidə fəal iştirak edir.

Ümumilikdə, sərgidə quru qoşunları və hərbi hava qüvvələrinin texnika və silahları, hərbi aviasiya silahları, Hava Hücumundan Müdafiə sistem və vasitələri, xüsusi təyinatlı əmlak və vasitələr, informasiya texnologiyaları, kosmik texnologiyalar, ordunun inzibati və texniki təchizatı ilə bağlı yeniliklər nümayiş olunur.

**Beləliklə, "ADEX" sərgisi dünyanın silah bazarında ixrac üçün təklif olunan hərbi sənaye kompleksinin müxtəlif sahələri üzrə müasir müdafiə texnologiyaları, hərbi texnikanın ən son nümunələri ilə tanış olmaq imkanı yaradır. Bu sərgi ən son silah nümunələrinin nümayiş olunması və beynəlxalq hərbi-texniki əməkdaşlıq sahəsində yeni müqavilələrin imzalanması üçün artıq əla platformaya çevrilib.**

## DAXİLİ İŞLƏR NAZİRLİYİNİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

***Sentyabrın 15-də Daxili İşlər Nazirliyində "Cinayətkarlığa qarşı mübarizədə, ictimai qaydanın qorunmasında və ictimai təhlükəsizliyin təmin edilməsində bayır xidmətinin fəaliyyətinin təşkili üzrə görülən işlər"in və "Təqsirləndirilən və xəbərsiz itkin düşmüş şəxslərin axtarışı"nın vəziyyətinə həsr olunmuş geniş Kollegiya iclası keçirilib.***

Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov müzakirəyə çıxarılan məsələlərin əməliyyat-xidməti fəaliyyətin mühüm sahələrini əhatə etdiyini, habelə insanların həyatının, sağlamlığının, qanuni mənafelərinin, hüquq və azadlıqlarının etibarlı qorunması baxımından böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb. O da qeyd olunub ki, cinayətkarlığa qarşı mübarizədə, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində həyata keçirilən tədbirlər cari ilin ötən dövründə də bütövlükdə qənaətbəxş olub, əvvəlki dövrlərin müsbət təmayülləri daha da inkişaf etdirilib.

Gündəlikdəki birinci məsələ barədə məruzə ilə çıxış edən Baş İctimai Təhlükəsizlik İdarəsinin rəisi polis general-mayoru Oqtay Kərimov bildirib ki, ölkədə aparılan hüquqi islahatlar çərçivəsində bayır xidmətlərinin də fəaliyyətinin təkmilləşdirilməsi, cinayətkarlığa qarşı mübarizədə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsində rolunun artırılması daim nazirliyin rəhbərliyinin diqqət mərkəzində olub. Cari ilin 8 ayı ərzində ictimai yerlərdə hüquqpozmaların profilaktikası sahəsində həyata keçirilən tədbirlər çərçivəsində müxtəlif inzibati xəta törətdiklərinə görə post-patrul xidmətinin əməkdaşları tərəfindən 18.303 şəxs saxlanılaraq qanunla müəyyən edilmiş qaydada məsuliyyətə cəlb olunub. Yol hərəkəti qaydalarını pozan piyadalar barədə 3.138 protokol tərtib edilib. İctimaiyyətlə əlaqələrin möhkəmləndirilməsinə, Polisə İctimai Dəstək üzvlərinin fəaliyyətinin səmərəli təşkilinə önəm verildiyi də diqqətə çatdırılıb.

Gündəlikdəki ikinci məsələ barədə məruzə ilə çıxış edən Baş Cinayət Axtarışı İdarəsinin rəisi polis general-mayoru Arzu Daşdəmirov qeyd edib ki, məhkəmə, istintaq və təhqiqat orqanlarından yayınan təqsirləndirilən şəxslərin yerinin müəyyən edilərək tutulması istiqamətində görülən işlər, öz növbəsində, əmələ görə cəzanın labüdlüyü prinsipinin reallaşması, cinayətlər nəticəsində vurulmuş ziyanın ödətdirilməsi, zərərçəkmişlərin pozulmuş hüquqlarının bərpası, axtarışa elan olunanların təkrar cinayətlərinin qarşısının alınması, bütövlükdə, vətəndaş məmnunluğunun təmin edilməsi kimi vacib məsələlərin həllinə xidmət edir. Bu baxımdan, əməliyyat şəraitinə və cinayətlərin açılmasına əhəmiyyətli təsiri baxımından təqsirləndirilən və xəbərsiz itkin düşmüş şəxslərin axtarışının vəziyyəti daim diqqət mərkəzində saxlanılıb, Kollegiya iclaslarında və əməliyyat müşavirələrində müzakirə olunaraq fəaliyyətin daha da yaxşılaşdırılması üçün qərarlar qəbul edilib. Cari ilin 8 ayında ölkə üzrə axtarılan şəxslərin tapılıb tutulması sahəsində fəaliyyətin nəticələri ötən ilin analoji dövrü ilə müqayisədə 4,4 faiz yaxşılaşıb.

Məruzələr ətrafında çıxış edən şəhər, rayon polis orqanlarının rəisləri görülmüş işlərdən, əməliyyat-xidməti fəaliyyətdə yol verilmiş nöqsan və çatışmazlıqlardan, onların aradan qaldırılması yollarından danışıblar.



İclasa yekun vuran nazir gündəlikdəki məsələlər üzrə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin məqsədyönlü və ardıcıl şəkildə həyata keçirdiyi hüquq-mühafizə siyasəti sayəsində ölkəmizdə cinayətkarlıqla mübarizə və ictimai təhlükəsizliyin təmini sahələrində əldə olunan uğurları xatırladaraq, hər bir əməkdaşın bu ali diqqətə layiqli əməyi ilə cavab verməsinin vacibliyini vurğulayıb. Həmçinin, ölkə Prezidentinin vətəndaş məmnunluğunun təmin edilməsinə dair tapşırıq və tövsiyələrinə bir daha diqqəti çəkərək ərazi polis orqanlarının rəislərindən vətəndaşların müraciətlərinə həssaslıqla yanaşılmasını, bütün araşdırmaların keyfiyyətlə və operativ aparılaraq, qaldırılan məsələlərin yerində qanuni həlli üçün səylərin gücləndirilməsini və tapşırılmış sahəyə məsuliyyətin artırılmasını tələb edib. Eyni zamanda, xüsusən fəaliyyətdə mövcud olan nöqsanların qısa müddətdə aradan qaldırılmasını tələb edib, bu istiqamətdə konkret tapşırıq və tövsiyələrini verib.

Nazir general-polkovnik Ramil Usubov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi əmin edib ki, şəxsi heyət qanunvericiliklə müəyyən olunmuş vəzifələrin, qarşıya qoyulmuş tapşırıqların öhdəsindən bundan sonra da layiqincə gələcək, sabitliyin, əmin-amanlığın, dövlətin və vətəndaşların qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunması işində qüvvə və bacarığını əsirgəməyəcək, bu ili də müsbət nəticələrlə başa vuracaqdır.

2_Layout 1 29.09.2018 9:46 Page 1



# QAZAXISTAN RESPUBLİKASI MİLLİ QVARDİYASININ BAŞ KOMANDANI GENERAL-LEYTENANT RUSLAN JAKSILIKOVUN ÖLKƏMİZƏ RƏSMİ SƏFƏRİ

***Sentyabrın 28-də Qazaxıstan daxili işlər orqanlarının vahid sisteminə daxil olan Qazaxıstan Respublikası Milli Qvardiyasının Baş Komandanı general-leytenant Ruslan Jaksılıkovun başçılıq etdiyi nümayəndə heyəti ölkəmizə rəsmi səfərə gəlib***





Əvvəlcə cənab R.Jaksılıkov və onu müşayiət edən şəxslər Fəxri Xiyabana gedərək xalqımızın Milli Lideri Heydər Əliyevin məzarı önünə tər çiçəklər qoyub, əziz xatirəsini ehtiramla yad ediblər. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üstünə tər çiçəklər düzülüb.

Sonra nümayəndə heyəti Şəhidlər Xiyabanındakı "Əbədi məşəl" kompleksini ziyarət ediblər.

Həmin gün Azərbaycan Respublikasının Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov general-leytenant Ruslan Jaksılıkovu qəbul edib.

Daha sonra Daxili Qoşunların Baş İdarəsində Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovun general-leytenant Ruslan Jaksılıkovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşü olub.

Qonaqları salamlayan general-leytenant Ş.Məmmədov Qazaxıstan Milli Qvardiyası Baş Komandanlığı ilə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları arasındakı əlaqələrdən və hərbi əməkdaşlıq münasibətlərinin inkişafından söz açıb, keçirilən belə görüşlərin əməkdaşlığımızın daha da genişlənəcəyinə müsbət təsir göstərəcəyinə əminliyini ifadə edib.

Görüşdə hər iki ölkənin müvafiq orqanları arasındakı faydalı işbirliyi yüksək qiymətləndirilib, belə əməkdaşlığın, təcrübə mübadiləsinin ölkələrimizin ümumi mənafelərinə xidmət etdiyi vurğulanıb. Qonaqlara qoşunların yaranma tarixi, strukturu, normativ-hüquqi bazası, döyüş yolu və inkişafı barədə ətraflı məlumat verilib.





Səmimi qəbula və ətraflı məlumata görə minnətdarlığını bildirən general-leytenant R.Jaksılıkov öz növbəsində respublikamıza səfər etməsindən məmnunluğunu ifadə edərək iki ölkənin müvafiq qurumları arasında əlaqələri yüksək qiymətləndirib.

Dostluq və mehribanlıq şəraitində keçən görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə edilib.

Qeyd edək ki, oktyabrın 1-dək davam edəcək səfər zamanı nümayəndə heyəti Daxili Qoşunların Ali Hərbi Məktəbində təlim-tədrisin təşkili, kursantlar üçün yaradılmış şərait, o cümlədən Bakı şəhərində yerləşən "N" saylı hərbi hissə ilə tanış olacaq, sonra Qoşunların Təlim Mərkəzində xüsusi-taktiki təlimi izləyəcək, həmçinin, Heydər Əliyev Mərkəzini və paytaxtımızdakı digər tarixi, mədəniyyət abidələrini ziyarət edəcəklər.

**Mətbuat xidməti**

# Daxili Qoşunların Ali Hərbi Məktəbində kursantların andiçmə mərasimi keçirilib



***Sentyabrın 15-də Daxili Qoşunların Ali Hərbi Məktəbinə bu il qəbul olunan kursantların təntənəli andiçmə mərasimi keçirilib. Mərasimdə Veteranlar Şurasının üzvləri, kursant valideynləri iştirak ediblər.***

Tədbir Ali Hərbi Məktəbin Döyüş Bayrağının sıra meydanına gətirilməsi ilə başlayıb.

Azərbaycan xalqının Milli Lideri Heydər Əliyevin və respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçularımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Daxili Qoşunların Nümunəvi-göstərici Hərbi Orkestrinin müşayiəti ilə Dövlət Himni ifa olunub.

Ali Hərbi Məktəbin rəisi general-mayor İ.Məmmədov çıxış edərək Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovun kursantlara andiç-mə münasibətilə təbrik və tövsiyələrini çatdırıb. Daha sonra hərbi andın mənasını, öz xalqına, Azərbaycan Respublikasına sədaqət andı içən kursantların üzərinə düşən şərəfli və məsul vəzifələri, eləcə də Azərbaycan Respublikası Konstitusiyasının müvafiq maddələrinin tələblərini xatırladıb.

Bildirilib ki, Daxili Qoşunların bütün şəxsi heyəti kimi, bu gün sıralarımıza daxil olan kursantlar da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən qarşıya qoyulan hər bir tapşırığı layiqincə yerinə yetirəcək, Daxili Qoşunların sıralarının möhkəmlənməsi üçün səy göstərəcək, dövlət və dövlətçiliyimizin daha da gücləndirilməsi naminə öz fədakar xidmətlərini əsirgəməyəcəklər.

Daha sonra Ali Hərbi Məktəbə yeni qəbul olunmuş kursantlar hərbi and içərək, Vətənimiz Azərbaycana və onun xalqına sadiq olacaqları, dövlətimizin mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacaqları, bundan ötrü qanlarını və canlarını əsirgəməyəcəkləri barədə söz veriblər.

Kursantlar adından çıxış edən Nail Dadaşov müqəddəs bayrağa əl basaraq and içdiklərini, zabit adına hər zaman layiq olmağa çalışacaqlarını, hərb işini vicdanla öyrənəcəklərini, hərbi ənənələri şərəflə davam və inkişaf etdirəcəklərini, üzərilərinə düşən şərəfli və məsul vəzifələri layiqincə yerinə yetirəcəklərini, onlara olan etimadı hər zaman doğruldacaqlarını ifadə edib.

Valideynlər adından çıxış edən Namiq Dadaşov isə bütün kursantları, həmçinin, valideynləri təbrik edib, onları bu müqəddəs və şərəfli yolda hər bir kursanta dəstək olmağa çağırıb. Kursantlarla yanaşı, hər bir valideynin də Vətənin müsəlləh əsgəri kimi Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin verdiyi bütün əmr və göstərişləri layiqincə yerinə yetirməyə hazır olduqlarını nəzərə çatdırıb.

Tədbir şəxsi heyətin təntənəli keçidi ilə başa çatıb.

**baş leytenant X.Hacızadə**

# DÖYÜŞ ATIŞLI TAKTİKİ TƏLİM UĞURLA SONA ÇATIB

***Praktiki atışlar zamanı şəxsi heyət tərəfindən təhlükəsizlik qaydalarına ciddi şəkildə riayət olunub***

**Sentyabr ayının 13-15-i tarixlərində Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin Təlim mərkəzində 16073 saylı hərbi hissənin minaatan batareyasının, 20-23-də isə Naxçıvan Qarnizonu "N" saylı hərbi hissənin Təlim mərkəzində 12565 saylı hərbi hissənin artilleriya batareyasının hazırlığı yoxlanılıb və şəxsi heyətlə döyüş atışlı taktiki təlim keçirilib.**

Təlimin təşkili və keçirilməsi ilə əlaqədar, Daxili Qoşunlar Komandanının müvafiq əmrinin icrasını təmin etmək məqsədilə Daxili Qoşunların Baş İdarəsinin Qərargahı tərəfindən müvafiq göstəriş, təlimin planı və digər sənədlər hazırlanaraq bütün zəruri tədbirlər görülüb.

İlk olaraq təlimin keçirilməsinin məqsədi iştirakçılara çatdırılıb, hərbi qulluqçularla təhlükəsizlik qaydalarına riayət olunması üzrə məşğələ keçirilib. Təlimin ilk günü şəxsi heyətin hazırlığına, silahlara, döyüş sursatlarına, optik kəşfiyyat cihazlarına, rabitə vasitələrinə baxış keçirilib.

Hərbi hissənin minaatan batareyasının hərbi qulluqçuları ilə taktiki və ixtisas hazırlığı üzrə məşğələlər keçirildikdən sonra onlardan Daxili Qoşunların Komandanının müvafiq əmri ilə təsdiq edilmiş "Daxili Qoşunların artilleriya bölmələrinin döyüş təlimi üzrə normativlər toplusu"nun tələblərinə uyğun məqbullar qəbul olunub.

Təlimin növbəti günlərində isə hərbi qulluqçularla atəş mövqeyinin tutulması, tərk edilməsi, atəş açana qədər heyətlərin işi, praktiki döyüş atışlarının keçirilməsi qaydaları, həmçinin, komandir heyəti ilə ərazinin vizual kəşfi, qiymətləndirilməsi, artilleriya atış və atəşinin idarə olunması qaydaları, artilleriya xətkeşlərinin və ərazinin xəritəsindən istifadə etməklə hədəfləri müəyyən edib, atışların keçirilməsi qaydası, atəşin bir nöqtədən idarə olunması, döyüş atışlı taktiki təlimin təşkili, keçirilməsi və qiymətləndirilməsi üzrə məşğələlər keçirilib. Şəxsi heyətin praktiki fəaliyyəti məşq etdirilib.

Bundan başqa, batareyanın təlimə





cəlb olunan 28 nəfər hərbi qulluqçusunun iştirakı ilə planauyğun olaraq praktiki döyüş atışları yerinə yetirilməklə praktiki atışlar keçirilib, atəş hazırlığı və atış kursunun tələblərinə əsasən praktiki fəaliyyət qiymətləndirilib.

Təlimlərin keçirilməsi zamanı təşkilati məsələlərin həlli, şəxsi heyətin qidalanması, yerləşdirilməsi, tibbi təminatı, daxili xidmətin təşkili, praktiki atışlar zamanı isə atəş sahəsinin mühafizəsi ciddi nəzarətdə saxlanılıb.

Təlimin sonunda artilleriya və minaatan bölmələrin hazırlığının yoxlanılmasının və keçirilmiş döyüş atışlı taktiki təlimin nəticələri ilə əlaqədar aidiyyəti üzrə şəxslərlə yekun keçirilərək, müvafiq tapşırıq və tövsiyələr verilib.

Ümumilikdə, təlimlər uğurla başa çatıb. Praktiki atışlar zamanı təhlükəsizlik qaydalarına ciddi şəkildə riayət olunub.

**leytenant N.Ağayeva**

3_Layout 1 29.09.2018 9:52 Page 1



# PEŞƏKAR MÜTƏXƏSSİSLƏR YETİŞDİRƏN HƏRBİ HİSSƏ

***25032 saylı hərbi hissədə xidməti-döyüş fəaliyyətini uğurla həyata keçirən bölmələrdən biri də sürücü və kiçik mütəxəssislər hazırlayan tədris bölüyüdür. Bölüyün qarşısında duran əsas tapşırıq qoşunların hərbi hissələrinə rabitəçi, aşpaz və sürücü mütəxəssislər hazırlamaqdır.***

Bölük komandiri-baş müəllim vəzifələrini müvəqqəti icra edən baş leytenant Anar Nəsibov mütəmadi olaraq hər bir taqımın təyinatına uyğun məşğələlərə cəlb olunduğunu dedi.





Tədris zamanı rabitəçi mütəxəssisləri hazırlayan taqımın şəxsi heyətinə qoşunların təchizatında olan rabitə və yüksək texnoloji vasitələrin, ultraqısa dalğalı, eyni zamanda qısa dalğalı radiostansiyaların taktiki-texniki xüsusiyyətləri izah edilir, işə salınması, istismarı, eləcə də radiomübadilənin aparılması qaydaları öyrədilir.

Aşpazlara yeməklərin bişirilməsi, keyfiyyəti, səhra şəraitində hazırlanması, o cümlədən gigiyena qaydalarına ciddi riayət olunması üsulları aşılanır.

Sürücü hazırlayan taqımın hərbi qulluqçularına isə bilik və bacarıqlarının planauyğun, mərhələli şəkildə mənimsənilməsi, avtomobil, həmçinin, digər texnikanın hər cür hava və ərazi şəraitində yol hərəkəti qaydalarına uyğun idarə edilməsi tədris olunur.

Baş leytenant A.Nəsibov ildə dörd tədris dönəminin olduğunu bildirərək, Daxili Qoşunlarda "B" və "C" kateqoriyalı sürücülərin hazırlanması üzrə tədris proqramını önə çəkdi. Onun sözlərinə görə, sürücülərin hazırlanması üzrə təlimin təşkili və keçirilməsi zamanı hərbi qulluqçuların qarşısında bir neçə mühüm vəzifə dayanır. Bunlar avtomobilin çətin şəraitlərdə idarə edilməsi, avtomobil karvanının tərkibində hərəkət zamanı təhlükəsizlik qaydalarına ciddi riayət olunması, hərəkət sürətinin, eləcə də nəqliyyat vasitələri arasında ara məsafəsinin düzgün seçilməsi, verilən komandaların (siqnalların) tez və dəqiq yerinə yetirilməsidir. Müxtəlif şəraitlərdə xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı texnikanın bacarıqla idarə olunması da sadalananlara daxildir.

Avqust ayının 20-dən başlayan tədris dövründə sürücü hazırlayan taqımın hərbi qulluqçularına yol hərəkəti qaydalarına uyğun avtomobillərin idarə edilməsi öyrədilir. Şəxsi heyət 12 həftə, həftənin tək günləri nahara qədər praktiki, nahardan sonra nəzəri, cüt günləri isə gün ərzində praktiki məşğələlərə cəlb olunur. Praktiki təlimlərdə Avtomobil xidmətinin rəisi mayor Elman Əhmədovun rəhbərliyi ilə avtomobillərin idarə olunması vərdişləri təkmilləşdirilir. Nəzəri məşğələlər zamanı "Avtomobillərin quruluşu və istismarı", "Avtomobilin idarə edilməsi və hərəkət təhlükəsizliyinin əsasları", "Yol hərəkəti qaydaları", "Yol nişanları" təlim fənləri üzrə nəzəri biliklər tədris olunur. Bu zaman hərbi hissədə işçi müəllim kimi fəaliyyət göstərən Yasəf İmanovun da biliyindən geniş istifadə olunur.

"B" və "C" dərəcəli sürücülərin hazırlanması üzrə tədris proqramını mənimsəmiş, Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin Şirvan şəhər Regional qeydiyyat-imtahan, texniki baxış şöbəsi tərəfindən keçirilən imtahanlarda müsbət nətcələr əldə edərək sürücülük vəsiqəsi almış hərbi qulluqçularla 250 kilometrlik xüsusi-taktiki yürüş keçirilir. 250 kilometrlik yürüşü müvəffəqiyyətlə başa vuran hərbi qulluqçular avtomobili idarə etmək hüququ qazanır.

Beləliklə, tədris dövrünü, eləcə də imtahanları müsbət qiymətlə başa vuran və sürücü adına layiq görülən hərbi qulluqçular qoşunların hərbi hissələrində sürücü vəzifəsində xidmətlərini davam etdirirlər.

**kapitan T.Əlizadə**

NÜMUNƏVİ XİDMƏT

# KOMENDANT BÖLÜYÜNDƏ XİDMƏT ETMƏK ŞƏRƏFDİR

***99713 saylı hərbi hissənin komendant bölüyü döyüş hazırlığı, nizam-intizamı ilə fərqlənir, qarşıya qoyulmuş tapşırıqların müvəffəqiyyətlə icra olunmasında nümunə olmağı bacarır. Bu işdə taqım komandiri leytenant Nicat Zeynallının da əməyi var. Gənc olmasına və vəzifəyə yeni təyin olunmasına baxmayaraq, ona göstərilən etimadı hər zaman doğrultmağa çalışan hərbi qulluqçumuz tabeliyindəki şəxsi heyətin döyüş və ictimai-siyasi hazırlığının, təlim-tərbiyəsinin, hərbi intizamının, mənəvi-psixoloji durumunun yüksəldilməsi üçün öz bilik və bacarığını əsirgəmir. Qeyd edim ki, leytenant N.Zeynallı Daxili Qoşunların Ali Hərbi Məktəbinin ilk buraxılışının məzunudur.***



O, 1997-ci il martın 27-də Ağdam rayonunun Qaradağlı kəndində dünyaya gəlib. Orta təhsilini Bakı şəhərində yerləşən 310 nömrəli tam orta məktəbdə alıb. 2014-2018-ci illərdə Ali Hərbi Məktəbdə hərbi peşənin sirlərinə yiyələnib. Hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur. Tabeliyində olan şəxsi heyətin mənəvi keyfiyyətlərini nəzərə alaraq, onların hərbi nizamnamələrin tələblərinə, hərbi intizama sözsüz əməl etmələrinə, həmçinin, zahiri görkəminə və geyim qaydalarının daşınmasına daima diqqət yetirir.

Xidmətin məsuliyyətindən danışan taqım komandiri bildirdi ki, şəxsi heyətin döyüş hazırlığı qədər, nizam-intizamın möhkəmləndirilməsi, təlim prosesinin keyfiyyətli təşkili vacibdir. Bunun üçün hər gün xidmətə cəlb olunan hərbi qulluqçularla məşğələlər keçirilir, silahların istifadəsi, sökülüb-yığılması zamanı təhlükəsizlik qaydalarına ciddi riayət olunması, eləcə də onların sağlamlığı nəzarətdə saxlanılır. Səhhətində problemlər aşkarlanan hərbi qulluqçu başqası ilə əvəz olunur.

Hərbi qulluqçuların istirahəti və asudə vaxtlarının səmərəli təşkil olunması da mühüm məsələlərdəndir. Bunun üçün hərbi hissədə əlverişli şərait yaradılıb. Belə ki, şəxsi heyət müxtəlif mətbu orqanları mütaliə edir, dama, şahmat və digər stolüstü oyunlar oynayır və qulaqcıqlar vasitəsilə radioya qulaq asır.

Komendant bölüyündə xidmət etməkdən qürur duyduğunu bildirən leytenant N.Zeynallı bundan sonra da hissə komandanlığının onlara olan etimadını doğrultmağa, üzərlərinə düşən vəzifələrin məsuliyyətini dərindən dərk edərək, hər zaman əzmkarlıq göstərəcəklərinə söz verdi.

**baş leytenant X.Hacızadə**

ŞƏHİDLƏRİMİZ

# SON DÖYÜŞÜ MEHMANA KƏNDİ UĞRUNDA OLDU...

***Azərbaycanda tarixən müxtəlif millətlərin nümayəndələri qardaşlıq və dostluq şəraitində yaşayıblar. Vətənimiz təhlükədə olanda, hərbi təcavüzlə üzləşəndə milli və dini mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşlarımız torpaqlarımızı qorumaq naminə birləşiblər, dövlətimizin çağırışına səs veriblər. Bu, onların vətənpərvərlik hissindən və azərbaycançılıq əqidəsinə bağlılığından irəli gələn cəhət olub.***

***Ermənistan-Azərbaycan hərbi münaqişəsinin qaynar mərhələsi zamanı - 1992-1994-cü illərdə Qarabağ cəbhəsində torpağımızı düşməndən müdafiə edərkən azərbaycanlılarla yanaşı, neçə-neçə rus, tatar, ləzgi, talış, yəhudi, tat, avar və digər millətlərdən olan vətəndaşlarımız fədakarlıq nümunələri göstəriblər, onlardan bir qismi şəhid olub, itkin düşüb və yaralanıb. Azərbaycanın ərazi bütövlüyü uğrunda ləyaqətlə vuruşmuş və canını fəda etmiş hər bir oğulun xatirəsi bizim üçün əzizdir.***

Ön cəbhədən geri qayıtmayan, müharibədə itkin düşərək sonradan ölmüş elan edilən hərbi qulluqçularımızdan biri də gizir Xamidulin Qelman Minullayeviçdir. Qelmanın bəzi sənədlərdə və nəşrlərdə adı və soyadı fərqli şəkildə qeyd olunub. Bu, həmin sənədləri hazırlamış qurumların, habelə ayrı-ayrı nəşrlərdəki yazı müəlliflərinin diqqətsizlik göstərərək doğum haqqında və ya ölüm haqqında şəhadətnamələrə istinad etməməsi ilə bağlıdır. Qelman 1963-cü il oktyabrın 19-da Bakıda tatar ailəsində dünyaya göz açıb. Atası Xamidulin Minulla Sibaqutuloviç 1967-ci ildə vəfat edib. Anası Kərimova Ravilə Zeydullayevna ikinci dəfə İmran Kərimovla ailə qurub və onun bir oğul, bir qız övladı dünyaya gəlib. R.Kərimova 2006-cı ildə vəfat edib. İ.Kərimov Qelmana atalıq edib, onu doğma övladlarından ayırmayıb. Ailədə qayğı ilə böyüyən övladlara cəmiyyətə layiqli vətəndaş olmaq əqidəsi aşılanıb, onların mənəvi tərbiyəsinə və təhsilinə diqqət yetirilib. Qelman Bakının Nərimanov rayonundakı 178 saylı tam orta məktəbdə təhsil alıb. Məktəb illərindən idmanın müxtəlif növlərinə maraq göstərib, xüsusilə cüdo və karate ilə müntəzəm məşğul olub. Müvafiq idman dərəcələrinə də yiyələnib. O, həmçinin, kitabsevər olması ilə fərqlənib.

1981-ci ildə Qelman Nərimanov Rayon Hərbi Komissarlığı tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılıb. Hərbi xidmətini Moskvada SSRİ Silahlı Qüvvələrinin tərkibində, artilleriya bölməsində keçib, "çavuş" hərbi rütbəsinə yüksəlib. Müddətli həqiqi hərbi xidmətdən sonra Moskvada texniki peşə məktəbində təhsil alaraq dülgər sənətini öyrənib. Bir müddət Moskvada yaşayıb və işləyib.

1988-ci ildə Qelman Azərbaycana qayıdıb. Həmin ildə Azərbaycanın Dağlıq Qarabağ bölgəsində erməni separatizmi baş qaldırmışdı. Azərbaycanlılar qonşu Ermənistandan didərgin salınırdılar. Ermənistanla həmsərhəd olan rayonlarımız atəşə tutulurdu. Respublikamızda ictimai-siyasi vəziyyət kəskin şəkildə gərginləşmişdi. Belə vəziyyətdə olan respublikamıza qayıdan Qelman da baş verənlərdən narahat idi. O, qısa müddətdə paytaxtdakı mehmanxanalardan birində işləyib. Ancaq sakit mülki iş onun xarakterinə, həyata baxışlarına uyğun deyildi. Vətənin dar günündə onun müdafiəsində dayanmağı, xalqımızın əmin-amanlığının keşiyini çəkməyi mahir idmançı və hərbi xidmət təcrübəsi olan şəxs kimi Qelman özünün vətəndaşlıq borcu hesab edirdi. 1989-cu ildə Qelman polis sıralarına qəbul olundu, xüsusi təyinatlı bölmənin əməkdaşı kimi həyatında yeni mərhələyə qədəm qoydu. Çox keçmədi ki, onun Dağlıq Qarabağ və Ermənistanla sərhəd bölgələrə asayişin və təhlükəsizliyin qorunması, erməni yaraqlılarının zərərsizləşdirilməsi kimi xüsusi tapşırıqların yerinə yetirilməsi məqsədi daşıyan xidməti ezamiyyətləri başladı. Qelman Dağlıq Qarabağın bir sıra yaşayış məntəqələrində, o cümlədən Şuşada, habelə Ağdam, Füzuli, Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər rayonlarının ərazisində polis əməkdaşı olaraq xüsusi əməliyyatlarda iştirak edib, bu zaman qətiyyət və cəsurluq göstərərək silahdaşları sırasında fərqlənib.

1992-ci ildən başlayaraq ön cəbhədə döyüşlər daha şiddətli xarakter almışdı. Artıq Azərbaycan müstəqil respublika olaraq Ermənistanın hərbi təcavüzü ilə üz-üzə qalmışdı. Həmin dövrdə erməni işğalçıları havadarlarının köməyi ilə bir sıra ərazilərimizi ələ keçirdilər, neçə-neçə yaşayış məntəqəmiz oda qalandı, minlərlə soydaşımız amansız müharibənin qurbanı oldu.

1992-ci ilin mart ayından başlayaraq, Daxili İşlər Nazirliyinin Daxili Qoşunları da döyüşlərdə iştirak edirdi. Qelman ön cəbhədə Daxili Qoşunların hərbi qulluqçularının şücaətini az görməmişdi. Onun yoldaşlıq münasibəti saxladığı hərbi qulluqçularımız da vardı. Bu cəsur polis əməkdaşını hərbi xidmət, əslində, daha çox cəlb edirdi, özü də müharibədə hərbçilərə onun təcrübəsinin gərək olacağını düşünürdü. Beləcə, 1992-ci ilin dekabr ayında Qelman Daxili Qoşunların sıralarına qəbul olunub. Hərbi qulluqçu kimi də öz yerini ön cəbhədə görürdü, bununla da torpaqlarımızın müdafiəsi uğrunda onun döyüş yolu davam etdi. Tərtər-Ağdərə istiqamətində şiddətli döyüşlərdən keçən Qelman dəfələrlə ölüm-qalım təhlükəsi ilə qarşılaşıb. Ailəsindən verilən məlumata görə, o, döyüşlərdən birində yaralanıb. Ancaq bu, onun iradəsini sarsıtmayıb.

1993-cü il fevral ayının 13-də gizir Xamidulin Qelman Minullayeviç Ağdərənin Mehmana (bəzi mənbələrdə Mehmanə, Mehmanlı və Mehmanı, hazırda Kəlbəcər rayonunun inzibati tərkibinə daxildir, işğal altındadır - Y.A.) kəndi ərazisində baş vermiş döyüş zamanı itkin düşüb (itkin düşdüyü tarix ailəsinə döyüş bölgəsindən gəlmiş hərbçilər tərəfindən bildirilib - Y.A.). Ancaq Bakı Şəhər Nərimanov Rayon Məhkəməsinin 2-670 nömrəli, 1997-ci il 9 aprel tarixli qətnaməsində Qelmanın 1993-cü ilin fevral ayında Ağdərə rayonunun Mehmanı kəndində döyüş vaxtı itkin düşdüyü qeyd olunsa da, ayın tarixi göstərilməyib. Həmin qətnamə ilə Xamidulin Qelman Minullayeviç hərbi əməliyyatlar zamanı itkin düşməsindən iki ildən çox vaxt keçməsi nəzərə alınaraq, ailəsinin müraciəti əsasında, qanunvericiliyin tələblərinə uyğun olaraq, ölmüş elan edilib.



ŞƏHİD QELMAN XAMİDULİN

Həmçinin, V-JQ 288650 nömrəli, 1998-ci il 22 iyul tarixli ölüm haqqında şəhadətnamədə də Qelmanın 1993-cü ilin fevral ayında Ağdərənin Mehmanlı kəndində həlak olduğu yazılıb.

Daxili Qoşunların Arxivindən verilən 530 nömrəli, 20.08.2018-ci il tarixli arayışda Qelmanın 1993-cü ilin fevral ayında Ağdərədə şəhid olduğu göstərilib. Arxivdə onun hərbi xidmət keçməsi barəsində tapılan yeganə rəsmi sənəd Daxili Qoşunlar Komandanının 02.04.1993-cü il tarixli şəxsi heyət üzrə müvafiq əmri ilə 15011 saylı hərbi hissədə (1993-cü ilin fevral-mart aylarında Ağdam-Ağdərə döyüş zonasında fəaliyyət göstərib - Y.A.) AQS-17 taqımının komandiri vəzifəsindən azad edilməsi haqqındadır. Burada diqqətçəkən məqam bu əmrin Qelmanın itkin düşdüyü fevral ayından bir müddət sonra imzalanmasıdır. Bu faktın özü də o vaxtkı müharibə reallıqlarından irəli gəlir. Ailəsindən Qelmanın Daxili Qoşunların sıralarında zabit rütbəsinə irəli çəkilməsi barədə redaksiyaya məlumat verilsə də, bunu təsdiq edən hər hansı bir sənəd aşkarlanmadı. Arxiv sənədində onun "gizir" hərbi rütbəsi daşıdığı qeyd edilib.

1999-cu ildə Bakıdakı "Çaşıoğlu" nəşriyyatında işıq üzü görən, Aliyə Ədalətin (Aliyə Hacıyeva) müəllifi olduğu "Şəhid ömrü yaşayanlar" kitabında Qelman haqqında məqalə verilib. Həmin məqalədə Qelmanın anasının xatirələri də öz əksini tapıb. R.Kərimova öz xatirələrində söyləyib ki, Qelman 1993-cü il fevralın 10-da axırıncı dəfə ailəsi ilə görüşüb. Fevralın 17-də R.Kərimova ön cəbhədə vəziyyətin ağır olmasından narahatlıq keçirərək Ağdərəyə getdiyini, oğlunun xidmət etdiyi hərbi hissəni tapdığını qeyd edib. Orada Qelmanın şəhid olduğunu, ancaq meyitinin düşmənin nəzarətindəki ərazidə qaldığını bildiriblər.

"Şəhidlik zirvəsi" qəzetinin 01-30 aprel 2008-ci il tarixli, 4-cü sayında Qelman barədə "Qorxmaz igid, etibarlı silahdaş" adlandırılan məqalə dərc olunub.

Ailəsi tərəfindən Qelmanın taleyinə aydınlıq gətirilməsi ilə əlaqədar ötən illərdə Beynəlxalq Qızıl Xaç Komitəsinə müraciət edilsə də, hansısa bir məlumat almaq mümkün olmayıb. 2017-ci ildə Qelmanın qardaşı və bacısından araşdırmaların aparılması üçün DNT nümunəsi də götürülüb.

**Vətənin arxalandığı və güvəndiyi qeyrətli oğullar qan yaddaşımızda ehtiram zirvəsinə ucalıblar. Onlardan biri olan Qelmanın döyüş yolu çörəyini yeyib, suyunu içdiyi, canından əziz bildiyi doğma torpaq naminə fədakarlıq nümunəsidir.**

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

4_Layout 1 29.09.2018 9:56 Page 1



# BƏŞƏRİYYƏTİN BƏLASI - NARKOMANİYA



Müasir dövrümüzdə cəmiyyəti düşündürən və narahat edən ən aktual problemlərdən biri də bəşəriyyətin ciddi bəlasına çevrilən narkomaniyadır. Narkotik insanın iradəsini iflic edir. Dünya ictimaiyyətinin səylərinə baxmayaraq, hələ də narkomaniya bəlası ilə mübarizə aparmaq üçün səmərəli yollar aşkar etmək və narkomanların sayını azaltmaq mümkün olmayıb.

Narkomaniya ilə mübarizə uzunmüddətli, çoxşaxəli, külli miqdarda pul vəsaiti tələb edən bir prosesdir. Bu problemin ictimai təhlükəli olması isə ondan ibarətdir ki, bu cinayət həmişə gizli şəraitdə baş verir, nəzarətdən kənarda qalır və günü-gündən artır.

Narkotik vasitələrdən istifadə ailələrin dağılmasına, cinayətkarlığın artmasına, cəmiyyətdə ən böyük bəlalardan olan QİÇS (Qanda İmmunitet Çatışmazlığı Sindiromu) xəstəliyinə gətirib çıxarır. Narkotik vasitələr insanlarda asılılıq yaratdığı üçün narkotikin vaxtı çatdıqda o mütləq qəbul edilməlidir. Narkomanın isə narkotik vasitəni almağa pulu olmadıqda o, hər cür vasitəyə, yəni oğurluğa, adam öldürməyə və digər cinayətlərə əl ata bilər.

Bəşəriyyəti düşündürən bu bəla ilə mübarizə sahəsində Azərbaycan Respublikasında da bir çox məqsədyönlü işlər aparılır.

Milli Lider Heydər Əliyev narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəni ümumdövlət vəzifəsi hesab edərək, 1996-cı il avqustun 26-da müvafiq fərman imzalayıb və bu problemin həll edilməsi üçün görülən işlər keyfiyyət baxımından yeni mərhələyə qədəm qoyub.

Bu fərman əsasında ölkəmizdə narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlıqla mübarizə sahəsində dövlət siyasətinin strateji istiqamətləri müəyyən olunub, təşkilati-hüquqi, institusional və praktiki tədbirlər həyata keçirilib. “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında”, “Narkoloji xidmət və nəzarət haqqında” Azərbaycan Respublikasının qanunları və digər normativ-hüquqi aktlar qəbul edilib, ölkəmiz narkotik vasitələr və psixotrop maddələrə nəzarət sahəsində BMT-nin konvensiyalarına və bir sıra digər beynəlxalq sənədlərə qoşulmuş, həmsərhəd və digər dövlətlərlə, habelə beynəlxalq təşkilatlarla daim inkişaf edən əlaqələr qurub. Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 iyul tarixli, 371 nömrəli Fərmanı ilə 2000-2006-cı illər üçün “Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqram” təsdiq edilib və həyata keçirilib.

Azərbaycan Respublikası Prezidentinin 24 iyun 2013-cü il tarixli Sərəncamı ilə “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı” təsdiq edilib.

Lakin bu kimi tədbirlərin görülməsinə baxmayaraq, bəşəriyyət üçün təhlükə mənbəyinə çevrilmiş narkomanlığın dünyada geniş şəkildə yayılması respublikamızda yeniyetmə və gənclərin bu problemlə qarşılaşma riskini durmadan artırır.

Bu baxımdan gənc və yeniyetmə nəslin bu kimi təhlükəli məsələlərdən qorunması üçün onların daimi olaraq narkomaniya, onun insan sağlamlığına ziyanı barədə geniş şəkildə maarifləndirilməsinə ehtiyac vardır.

Daxili Qoşunların sıralarında xidmət edən hərbi qulluqçuların böyük bir hissəsini gənclər - əsgərlər təşkil edir. Qoşunların sıralarına daxil olan hər bir hərbi qulluqçu, o cümlədən, əsgərlər və çavuşların hərbi xidməti dövründə Vətən qarşısında şərəfli borcunu məsuliyyətlə yerinə yetirmələri, eləcə də bəşər övladını məhvə aparan narkomaniya haqqında kifayət qədər biliklərə yiyələnmələri üçün müvafiq tədbirlər görülür.

“Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı”nın icrası ilə əlaqədar Daxili Qoşunlarda bir sıra tədbirlərin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının Daxili İşlər Naziri tərəfindən təsdiq edilmiş 07.08.2013-cü il tarixli tədbirlər planının müvafiq bəndlərinin vaxtlı-vaxtında icrası təmin olunur.



Şəxsi heyət arasında narkomanlığın cəmiyyətə və insan sağlamlığına ziyanı barədə təbliğat işinin gücləndirilməsi məqsədilə Daxili Qoşunlar Komandanının müavini-Şəxsi heyət üzrə İdarə rəisinin müvafiq göstərişinə əsasən, bütün dərəcəli hərbi qulluqçularla hər rüb əlavə məşğələ planlaşdırılıb keçirilir.

Bundan əlavə, Daxili Qoşunların hərbi hissələrinin yerləşdiyi şəhər və rayonlarda hərbi qulluqçular arasında sağlam həyat tərzinin təbliğ olunması məqsədilə səhiyyə, o cümlədən daxili işlər orqanlarının əməkdaşları ilə görüşlər təşkil olunur, izahedici söhbətlər aparılır.

Bununla yanaşı, hərbi qulluqçuların sağlamlığının qorunmasına xidmət edən maarifləndirmə işlərinin genişləndirilməsi üçün mütəmadi olaraq Daxili Qoşunların Tibb xidmətinin hərbi qulluqçuları tərəfindən hərbi hissələrdə tibbi profilaktiki işlər görülür.

Bəşəriyyətin bəlası olan narkomaniya ilə mübarizə nəinki dövlətin, həmçinin, bu dövlətdə yaşayan hər bir vətəndaşın borcudur.

**“Əsgər”**

# BƏDİİ ƏDƏBİYYAT VƏ MƏTBUATIN MƏNƏVİ TƏSİR GÜCÜNƏ MÜASİR ZAMAN BAXIMINDAN BAXIŞ...

Yaşadığımız müasir dövrdə milli-mənəvi dəyərlərimizin qorunub saxlanması, mədəni irsimizin təbliği, zəngin tariximizin öyrənilməsi, cəmiyyətdə dövlətçilik təfəkkürünün aşılanması, vətənpərvərlik ruhunun yüksəldilməsi məsələləri xüsusi aktuallıq kəsb edir. Hər bir xalq öz mənəvi dəyərləri, tarixinə bağlılığı və ehtiramı, vətənpərvər ruhu ilə güclü olur, zamanın sınaqlarından uğurla keçə bilir, birliyini qoruyub saxlayır. Ona görə də bu keyfiyyətlərin formalaşdırılması və dönməz xarakter alması üçün bədii sözün hikməti, mətbuat yazısının maarifləndirici cəhəti tərbiyə işi prosesində vacib rol oynayır. Bu gün virtual şəbəkə - internetin cəmiyyətlərin, icmaların, fərdlərin təfəkkürünə informasiya basqısı reallığında belə, bədii ədəbiyyat və mətbuatın üzərinə düşən missiya yenə də aktualdır, ictimai şüura mənəvi təsir gücündədir, insanları milli ideya və məfkurə uğrunda birləşdirmək potensialını daşıyır. Özü də virtual şəbəkə daxilində də bədii ədəbiyyat nümunələri mütaliə üçün yerləşdirilib, habelə mətbuat portalları və saytları uğurla fəaliyyət göstərir. Bir çox təhlilçilərin qənaətinə görə, dünyada baş verən qloballaşma prosesinin hansı dərəcədə dərinləşməsindən asılı olmayaraq, bədii ədəbiyyat və mətbuat sahəsi öz ictimai çəkisini itirməyəcək.

Ümumilikdə, bədii ədəbiyyat və mətbuatın mütaliəsi ictimaiyyətin və ayrı-ayrılıqda fərdlərin dünyagörüşünün artmasına, mənəvi əqidəsinin formalaşmasına, ictimai həmrəylik tellərinin möhkəmlənməsinə, savadlılıq və intellekt keyfiyyətlərinin inkişafına, ana dilimizin zəngin söz ehtiyatından bəhrələnməsinə xidmət edir. Bədii söz və mətbuatın publisistika dili fərdlərin mənəvi yetkinləşməsi, həyat təcrübəsi əldə etməsi, dürüst ictimai mövqe sahibi olması, cəmiyyətin əksər hissəsinə maraqlı olan mövzuların müzakirəsinə təkan verməsi baxımından da əhəmiyyətli qaynaqlardır.

Bədii əsərlərdə və qəzet məqalələrində Vətən naminə qəhrəmanlıq və fədakarlıq nümunələri tərənnüm olunur, təbliğ edilir, tarixi yaddaş üçün öz əksini tapır. Bütün bunlar olmasa, cəmiyyətdə müsbət mənəvi ənənələrin nəsildən-nəsilə ötürülməsi baxımından ciddi boşluq yarana bilər. Ona görə də bədii ədəbiyyat və mətbuat cəmiyyətdə mənəvi ənənələrin daşıyıcısı kimi də xüsusi rol oynayır.

Milli ədəbiyyatımız və mətbuatımızın dövlətçiliyimizin təşəkkül tapmasında xidmətləri danılmazdır. Nəzərə almaq lazımdır ki, milli özünüdərk prosesinin inkişafında ədəbiyyat və mətbuat bir mayak kimi yol göstərir, ictimai ovqatı müsbət zəmində kökləyə və yönəldə bilir. Onu da qeyd etməliyik ki, milli mənlik hissinin ictimai şüurda bünövrələşməsində milli ədəbiyyat və mətbuatımızın töhfələri əvəzsizdir.




Azərbaycançılıq ideologiyasının carçısı missiyasını həyata keçirən ədəbiyyatımız və mətbuatımızın milli həmrəyliyin formalaşması və möhkəmləndirilməsi yönündə potensialı da çox önəmlidir. Milli ideologiyamızın əsası olan azərbaycançılıq mövzusunu bədii əsərlərdə və mətbuat yazılarında əks etdirmək, dolğun işıqlandırmaq, geniş oxucu dairəsinin qavrayacağı dildə və üslubda təqdim etmək vacibdir. Bu işdə yazıçı və şairlərimizin, o cümlədən jurnalistlərimizin verdikləri töhfələr cəmiyyət üçün nə qədər aktualdırsa da, onlardan gözləntilər də böyükdür. Bədii əsər və mətbuat sözünün kəsərli olması onun məzmununun dəyərini, cəlbediciliyini, düşündürücülük xüsusiyyətini müəyyən edir. Kəsərli sözə və düşündürücü məna yükü daşıyan fikirlərə heç bir cəmiyyət və fərd laqeyd qalmır.



Bu gün cəmiyyətimizdə hərbi-vətənpərvərlik janrında yeni-yeni maraqlı bədii əsərlərin yazılmasına ehtiyac var. Həmçinin, bütövlükdə, jurnalistikamızın mənəvi dəyərlərimizin keşiyində mübariz dayanması üçün öz sıralarını səfərbər etməsi zamanın çağırışıdır. Hərbi-vətənpərvərlik mövzusunda işıq üzü görən bədii əsərlərin təbliğ edilməsi, təqdimatlarının keçirilməsi, geniş oxucu kütləsi üçün əlçatan olması, kitabxanaların fonduna və elektron oxu səhifələrinə verilməsi də indiki dövrümüz üçün olduqca əhəmiyyətlidir. Bu yaxınlarda ölkəmizin paytaxtında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə müasir standartlara cavab verən kitab mərkəzinin açılması dövlətimizdə kitab nəşrinə və mütaliəsinə nə dərəcədə böyük dəyər verilməsinin təzahürüdür.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən bu gün çap mətbuatımızda, eləcə də elektron informasiya resurslarında milli-mənəvi dəyərlərimiz və hərbi-vətənpərvərlik mövzusunda müxtəlif ictimai layihələr həyata keçirilir, müsabiqələrin təşkili reallaşdırılır. Bu mühüm addımların özü mətbuatımızın yerinə yetirdiyi missiyaya geniş dövlət dəstəyinin bariz nümunəsidir.

Ölkəmizin hərbi mətbuatı da zamanın çağırışlarından kənarda qalmır, daim təkmilləşir, əhatə etdiyi mövzular genişlənir, üslub və tərtibat yeniliklərini tətbiq edir. Hərbi mətbuatda informasiyaların verilməsi və mövzuların işıqlandırılması müəyyən məhdud çərçivədə olsa da, yaradıcı dəst-xəttin dolğun ifadə olunması baxımından şaxələr genişdir. Hərbi qəzetin mənəvi təsir gücünün artırılması daim yaradıcı axtarışlardan, hərbi kollektivlərin nəbzini tuta bilməkdən, hərbi qulluqçuların düşüncəsini məşğul edən mövzulara ustalıqla toxuna bilməkdən, onların əhval-ruhiyyəsini dolğun işıqlandırmaqdan, hərbi xidmətdə fədakarlığı mübaliğəsiz aşılayan və şablon üslubda yazılmayan, bədii çalarları olan dürüst məqalələrdən, çoxsaylı oxucu hərbi qulluqçu ilə müsahib olmaqdan, onların psixologiyasını, fərdi keyfiyyətlərini, qayğı və təşəbbüslərini dərindən öyrənib təhlil etməkdən keçir.

**Yalçın Abbasov**

*NÜMUNƏVİ XİDMƏT*

# ŞƏXSİ HEYƏT BİRİNCİLİYİ QORUYUB SAXLAMAQ ƏZMİNDƏDİR

Daxili Qoşunların 99713 saylı hərbi hissəsinin nümunəvi, nizam-intizamlı hərbi qulluqçularından olan gizir Şənlik Fətəliyev 1986-cı il iyunun 20-də Xaçmaz rayonunda anadan olub. Orta təhsilini doğulduğu rayonda-Cəfər Cabbarlı adına 6 saylı orta məktəbdə alıb. 2005-ci ilin aprel ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb, həmin ilin may ayından isə 99713 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində müddətli həqiqi hərbi xidmət keçib. 2006-cı ilin oktyabr ayından müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi kiçik çavuş hərbi rütbəsində xüsusi vasitələrin tətbiqi qrupunda atıcı olub. 2011-ci ilin sentyabr ayından 2012-ci ilin iyun ayınadək Türkiyə Respublikasında jandarm gizir təməl kursunda iştirak edib və həmin ilin avqust ayından hərbi hissənin xüsusi təyinatlı dəstəsində xüsusi həmlə qrupunun yarımqrup komandiridir.

2014-cü ildə zoğalı beret uğrunda keçirilən yarışda uğurla iştirak edib. Həmçinin, rəhbərlik etdiyi yarımqrupun bir neçə nəfər hərbi qulluqçusu da zoğalı beretə layiq görülüb. Bu ilin yekun yoxlamasını əla qiymətlərlə başa vuran hərbi qulluqçumuz bacarığı, hərbçi peşəsinə olan sevgisi və məsuliyyəti ilə, sözün əsl mənasında, şəxsi nümunə olmağı bacarır. Hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur, dəfələrlə müxtəlif mükafatlara layiq görülüb. Tabeliyindəki şəxsi heyətə qarşı tələbkar olan komandir, eyni zamanda, hərbi qulluqçuların ehtiyacları, qayğıları ilə maraqlanır, yoldaşlıq münasibətlərinin qorunub saxlanmasına çalışır.

Gizir Ş.Fətəliyev həm də idmançıdır. Uşaqlıqdan idmanın atletika növünə maraq göstərib. Çoxnövçülük üzrə daxili işlər orqanları arasında, eləcə də Daxili Qoşunların birinciliyi uğrunda keçirilən yarışlarda dəfələrlə hərbi hissəni uğurla təmsil edərək, birinci yerə layiq görülüb.

Yarımqrup komandiri bildirir ki, şəxsi heyətin yüksək döyüş hazırlığının qorunub saxlanması üçün müvafiq təqvim planına və hissə komandiri tərəfindən təsdiq edilmiş məşğələ cədvəlinə uyğun olaraq xüsusi-taktiki hazırlıq, döyüş və ictimai-siyasi hazırlıq, hərbi topoqrafiya, fiziki və atəş hazırlığı məşğələləri keçirilir. Hərbi qulluqçular keçirilən məşğələlərdə həvəslə iştirak edir, peşəkarlıq vərdişlərinin artırılması üçün səy göstərir, birinciliyi qoruyub saxlamaq prinsipini heç zaman unutmur.



Onun sözlərinə görə, yarımqrupun şəxsi heyəti il ərzində mütəmadi olaraq irimiqyaslı təlimlərə, eləcə də praktiki məşğələlərə cəlb olunur. Belə ki, cari ilin avqust ayında yarımqrupun hərbi qulluqçuları Daxili Qoşunların təlim mərkəzində xüsusi ssenari üzrə hazırlanmış taktiki təlimlərdə uğurla iştirak ediblər.

Bir faktı da vurğulamaq yerinə düşər ki, 2015-ci ilin may ayının 19-da paytaxtın Binəqədi rayonunda yanan çoxmərtəbəli binadan mülki şəxslərin təxliyyə olunmasında yarımqrupun şəxsi heyətinin mühüm fəaliyyəti olub.

**99713 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

# HƏRBİ XƏBƏRLƏR

*·YENİLİKLƏR ·*



### Türkiyə öz imkanları ilə helikopter uçurda bilən 7-ci ölkə oldu

Ordu.az “Anadolu” agentliyinə istinadən xəbər verir ki, bu barədə “Türk Havacılık ve Uzay Sanayi” (TUSAŞ) İdarə Heyətinin sədri Təməl Kotil bildi-rib.

Türkiyə müdafiə sənayesinə töhfə verən və bu sahədə uğur qazanmaq istəyən firmalar bu il ilk dəfə təşkil olunan SAHA EXPO-2018 Müdafiə, Aviasiya və Kosmos Sənayesi sərgisində bir araya gəliblər.

Burada firmasının yeni uğurlarından danışan Kotil helikopter istehsalı məsələsində xeyli irəliləyiş əldə etdiklərini bildirib və Türkiyənin helikopter bazarında 2%-lik paya sahib olmasının hədəfləndiyini vurğulayıb.

Onun sözlərinə görə, TUSAŞ təkcə bir helikopterdən 300 milyon dollar, bu il 2 milyard dollar gəlir əldə edəcək.

### ABŞ donanması F-35 stels qırıcı təyyarələrinin flotiliyaya qoşulması ilə daha sərt ölümcüllük əldə edəcək

Ordu.az xəbər verir ki, ABŞ donan-masının “USS Abraham Lincoln” avia-daşıyıcı döyüş qrupu F-35 C təyyarələri ilə təchiz edilib.

F-35 C F-35 ailəsinə məxsus təyyarədir. O, ilk dəfə olaraq “USS Abraham” göyərtəsində F/A-18 təyyarələri ilə birlikdə təlim keçib.



F-35 C-nin ABŞ donanmasının bütün 11 aviadaşıyıcısı üzərinə enib-qalx-ma imkanına malik olması onun F/A-18 “Super Hornet” təyyarələrini əvəzləmə ehtimallarını da artırır.

Stels dizayna malik F-35 C-nin əsas üstünlüklərindən biri də situasiyadan xəbərdar olma bacarığının rəqiblərindən əhəmiyyətli dərəcədə yüksək olmasıdır. Bu, pilotlara havadan müdafiə mühitinə nəzarət imkanı yaradır.



### Rusiya “Robocop” eksoskeletini sınaqdan keçirir

Rusiyanın “TsNiiTochMash” Hərbi Sənaye İstehsalat Bürosu tərəfindən istehsal edilən elektrik mühərrikləri ilə təchiz olunmuş, 50 kiloqram ağırlığı olan və avtomat silahdan tək əllə istifadə etmək imkanı verən yeni eksoskeletləri təqdim olunub.

Ordu.az xəbər verir ki, bu barədə rəsmi açıqlamanı istehsalçı büronun nümayəndəsi Oleq Faustov bildirib.

O, həmçinin, “Army-2018” forumu zamanı sınaqları keçiriləcək “Robocop” eksoskeletinin 2025-ci ilə qədər tamhəcmli istifadəsinin həyata keçiriləcəyini bildirib.

*TƏSİSÇİ:*
**Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.**
Redaktor: A.Əhmədov

**REDAKSİYANIN ÜNVANI:**
**AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.**
**Əlaqə telefonları: 560-22-63**

**Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.**

**Şəhadətnamə 3565**
**Sayı 3000**